შეფასებისა და გამოცდების
ეროვნული ცენტრი

Vahid Milli İmtahanlar
iyul, 2025

# Ümumi qabiliyyət testi

Təlimat

Qarşınızdaki imtahan testinin elektron bukletidir.

Test iki – verbal və riyaziyyat – hissədən ibarətdir.

Hər hissəsi 40 tapşırıqdan ibarətdir. Hər tapşırığın ehtimal olunan dörd və ya beş cavabı vardır. Onlardan ancaq biri düzgündür.

**Testin hər hissəsini işləmək üçün sizə 1 saat 35 dəqiqə vaxt verilir.**

Hər bir tapşırığın təlimatını diqqətlə oxuyun, tapşırığı yerinə yetirmək üçün nə tələb olunduğunu yaxşı düşünün və sonra savabı seçin və yazın.

**Testin maksimal xalı – 80-dır.**

**Uğurlar arzulayırıq!**

# Verbal hissə

# **Məntiq**

*Bu tip tapşırıqlar ilkin məlumatlar və çıxarılacaq nəticələr baxımından bir-birindən fərqlənir. Buna görə hər bir tapşırıqda olan suala xüsusi diqqət yetirin və verilmiş variantlardan müvafiq cavabı seçin.*

*Məlumatların çertyoj və ya diaqram formasında təsvir olunması bəzi suallara cavab verilməsini asanlaşdıracaq.*

**1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40**

**1.** Yazı stolunun bağlı siyirməsində neçə dəftər olduğu haqqında üç qız müzakirə edir:

**Elene:** Hər birimizə ən azı bir dəftər düşəcək.

**Anna:** Siyirmədə dəftərlərin sayı üçdən azdır.

**Lika:** Siyirmə boş deyil.

Əgər qızlardan yalnız birinin düz dediyi məlumdursa, siyirmədə neçə dəftər var?

a) Üç;

b) Yalnız iki;

c) Yalnız bir;

ç) Müəyyən etmək mümkün deyil;

d) Heç yoxdur.

**2.** Müddəalar verilmişdir:

- Başqalarına kömək etsən, özündən məmnun olarsan.
- Başqalarına açıq şəkildə kömək etsən, insanlar tərəfindən sayılıb seçilərsən.

Əgər verilən müddəalar doğrudursa, aşağıdakılardan hansı **mütləq səhvdir**?

a) Bəzən  başqalarına göstərişli şəkildə kömək etdikdə, bu insanlar tərəfindən sayılıb seçilmək və özündən məmnun olmaqla nəticələnir;

b) Başqalarına göstərişli şəkildə kömək etdikdə, bu həmişə insanlar tərəfindən sayılıb seçilmək və özündən məmnun olmaqla nəticələnir;

c) Bəzən başqalarına kömək etdikdə bundan heç kimin xəbəri olmursa, bu özündən məmnun olmaqla nəticələnmir;

ç) Əgər özündən məmnunsansa, bu o deməkdir ki, başqalarına kömək etmisən və bundan başqalarının xəbəri olmayıb;

d) Əgər insanlar tərəfindən sayılıb seçilirsənsə, bu o deməkdir ki, başqalarına göstərişli şəkildə kömək etmisən.

**3.** Giorgi dəniz limanında buzlu limonad satır. Buzlu limonadı həm piyada gəzənlər, həm də sürücülər isti günlərdə alırlar. **Ancaq Giorgi sərin günlərdə isti günlərdəkindən daha çox limonad satır.**

Yuxarıda verilən uyğunsuzluğu sadalanlardan hansı **izah edir**?

a) Sərin günlərdə sahildə sürücülər daha çox hərəkət edir, nəinki piyada gəzənlər;

b) İsti günlərdə piyada gəzənlər daha çox limonad alır, nəinki sürücülər;

c) İsti günlərdə piyada gəzənlər limanın binasında olmağa üstünlük verilər və piyada uzağa getmirlər;

ç) İsti günlərdə alıcılar Giorgidən limonada buz əlavə etməsini tez-tez xahiş edirlər;

d) Sərin günlərdə Giorgi iş saatını uzadır və sahildə daha uzun müddət qalır.

**4.** Anna köhnə kondisionerini daha yeni, enerjiyə qənaət edən kondisionerlə dəyişdi, bundan sonra onun elektrik haqqı əksinə artdı. Bu nəticəni aşağıdakılardan hansı izah **edə bilməz**?

a) Yeni kondisioneri quraşdırdıqdan sonra, evdə Annadan daha çox vaxt keçirən dostu onun yanına köçdü.

b) Yeni koondisioneri quraşdıranadək havanın temperaturu növbəti aylar ərzində olduğundan daha aşağı idi;

c) Yeni kondisioneri quraşdırdıqdan sonra elektrik enerjisinin qiyməti artdı;

ç) Yeni kondisioner Annanın evində sərf edilən ümumi elektrik enerjisinin köhnə kondisionerlə müqayisədə daha kiçik bir hissəsini sərf edir;

d) Yeni kondisioner quraşdırıldıqdan sonra, Anna evdə qarala bilmək üçün həm də solarium aparatı aldı.

**5.** Verilmişdir:

- Reklam şirkətinin bütün əməkdaşları ali təhsil alıblar.

Aşağıda sadalanan müddəalardan ikinci olaraq hansını əsas götürməliyik ki, reklam şirkətinin bütün əməkdaşlarının rəqəmsal marketinq kursu keçdiyi nəticəsini çıxaraq?

a) Rəqəmsal marketinq kursunu yalnız ali təhsilli şəxslər keçir;
b) Bütün ali təhsilli şəxslər rəqəmsal marketinqdən kurs keçiblər;
c) Yalnız reklam şirkətinin işçiləri ali təhsil alıblar;
ç) Rəqəmsal marketinq kursunu yalnız reklam şirkətinin işçiləri keçir;
d) Bəzi ali təhsilli şəxslər rəqəmsal marketinq kursunu keçiblər.

## Cümlələrin tamamlanması

*Verilmiş cümlələrdə bir neçə söz buraxılmışdır. Buraxılmış sözlər cümlədə xətlərlə göstərilmişdir. Bir xətdə bəzən bir söz, bəzən isə bir neçə söz nəzərdə tutulur.*

*Ehtimal olunan cavabların hər variantı sözlər qrupunu əhatə edir, onun hissələri bir-birindən sağa əyilmiş xətlərlə – sləşlə (/) müəyyən edilmişdir. Cavablarda elə variant seçin ki, onun hər hissəsinin ardıcıllıqla düzülməsi ilə müvafiq buraxılmış yerlərdə fikir etibarı ilə düzgün cümlə alınsın.*

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**6.** Avstraliyanın qumlu sahilində insanın ilk ayaq izlərini dalğalar _____ işğalçılar qitənin dərinliklərinə hücum edərkən, arxalarında elə bir iz _____.

a) yuya bilməyib, lakin, / qoydular ki, zaman da silə bilməzdi
b) yuya bilməyib, çünki / qoya bilmədilər ki, zaman onu silə bilməsin
c) dərhal yuyub, çünki / qoya bilmədilər ki, zaman onu silə bilsin
ç) dərhal yuyub, lakin, / qoydular ki, zaman da silə bilməzdi

**7.** Əksəriyyətin yalanı kəskin şəkildə mənfi _____ sanki _____ , ancaq eyni zamanda praktiki olaraq hər biri _____. Bununla yanaşı hər kəs istəyərdi ki, başqalarının yalanlarını_____ yaxşı bacarsın, özü isə _____ .

a) qiymətləndirməməsi / paradoksal deyil / yalan danışmamağa çalışır / gizlətməyi / heç vaxt yalan danışmasın

b) qiymətləndirməsi/ paradoksaldır / yalan danışmamağa çalışır / gizlətməyi / inandırıcı şəkildə yalan danışsın

c) qiymətləndirməməsi / paradoksal deyil / birdən çox dəfə yalan danışıb/ aşkara çıxartmağı / heç vaxt yalan danışmasın

ç) qiymətləndirməsi / paradoksaldır/ birdən çox dəfə yalan danışıb / aşkara çıxartmağı / inandırıcı şəkildə yalan danışsın

**8.** Mənəvi inkişafın yüksək səviyyəsində olmaq insanın _____ zəmanət _____, çünki bir çox insan yalanın, oğurluğun və sairənin əxlaqsızlıq olduğunu bilir, lakin bu, _____.

a) həmişə əxlaqa uyğun davranacağına / vermir/ onu nalayiq davranışlar sərgiləməməyə məcbur edir
b) əxlaqsız şəkildə davranmayacağına /vermir/ onun nalayiq davranışlar sərgiləməsinə mane olmur
c) əxlaqsız şəkildə davranmayacağına /verir/ onun nalayiq davranışlar sərgiləməsinə mane olmur
ç) həmişə əxlaqa uyğun davranacağına / verir/ onu nalayiq davranışlar sərgiləməməyə məcbur edir

**9.** Hollivud filmləri sayəsində biz avropalı işğalçılara qarşı qorxmadan mübarizə aparan və öz adət-ənənələrini qoruyan hindliləri cəsur atlılar kimi təsəvvür edirik, _____ hansısa qədim mədəniyyəti müdafiə edən aborigen amerikalılar _____1492-ci ildə Kolumb Amerika qitəsinə ayaq basanda, _____ .

a) lakin / əla atlılar olublar, çünki / bu vaxt orada atlar mövcud deyildi
b) çünki / əla atlılar olublar, lakin / orada çoxlu çöl atları mövcud idi
c) lakin / heç atlı deyildilər, çünki / bu vaxt orada atlar mövcud deyildi
ç) çünki/ heç yaxşı atlı deyildilər, lakin / orada çoxlu çöl atları mövcud idi

## Oxunmuş mətnin düşünülməsi

*Mətni diqqətlə oxuyun və düşünün. Hər sualın ehtimal olunan cavablarından verilmiş mətnə görə düzgün variantı seçin.*

*Bu və ya digər sualla tanış olduqdan sonra suala cavab vermək üçün mətnə qayıtmaq, müvafiq parçanı yenidən oxumaq və suala keçmək lazım gələ bilər. Bunu mətnin eləcə də hər sualın sonunda verilmiş müvafiq qeydi "basmaqla" asanlaşdıra bilərsiniz.*

**1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40**

I Kosmosun mənimsənilməsi, dünya okeanının tədqiqi, hesablama maşınlarının yaradılması və insan fəaliyyətinin müxtəlif sahələrində bir çox başqa nailiyyətlər çox vaxt canlı orqanizmlərin (arılar, yarasalar, delfinlər və s.) fizioloji və anatomik xüsusiyyətlərinin öyrənilməsi ilə əlaqələndirilir. İnsanın indiyə qədər yaratdığı hər şey quş qanadları, balıq üzgəcləri və s. ilə təchiz edilmiş səmərəli və yığcam "cihazlar"la müqayisədə solğun görünür. Mühəndislik məsələlərinin həlli üçün bioloji sistemləri və prosesləri öyrənən elmə **bionika** deyilir.

II Bionikanın şüarı: "Canlı prototip* yeni texnologiyanın açarıdır". Mühəndislik məsələlərinin həlli üçün canlı təbiət haqqında mövcud biliklərdən istifadə ideyası italyan rəssam **Leonardo da Vinçiyə** məxsusdur. O, quşların uçuş mexanizminin tədqiqi əsasında uçan aparat - ornitopter yaratmağa çalışırdı.

III Delfinlərin çox sürətlə üzdüyü və nəhəng sıçrayışlar etdiyi məlumdur. Hidrodinamistlərin** fikrincə, delfin saatda 20 kilometrdən çox sürətlə üzə bilməməlidir. Əslində isə o, bu sürəti iki-üç dəfə üstələyir. Amerikalı alim Ceyms Qrey bu hadisəyə hələ 1936-cı ildə diqqət yetirdi. O, yazırdı: "Delfin ya hər hansı məməlidən yeddi dəfə daha çox güclüdür, bu da mümkün deyil, ya da o, suyun müqavimətini azaltmaq üçün möcüzəvi qabiliyyətə malikdir". Bu izaholunmaz hadisə - imkanlarından daha sürətli hərəkət et - **"Grey paradoksu"** adlandırıldı.

* Prototip – bir şeyin ilkin nümunəsi, ilk görünüşü;
** Hidrodinamist – suda bərk cisimlərin hərəkətini öyrənən alim.

**Suallara keçmək:** 10 11 12 13 14 15 16 17 18 19 20
1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

IV Sonrakı müşahidələr nəticəsində məlum oldu ki, delfinin hidrodinamik xüsusiyyətləri sualtı qayıqların strukturlarından qat-qat təkmildir. Bu fakt alimləri maraqlandırdı. Onlar delfinin hamar, sıx dərisini tədqiq etdilər və analoji olaraq, sualtı qayığın gövdəsi üçün "geyim" (örtük) yaratdılar. Saatda 70 kilometr sürətlə hərəkət edən belə model suda "geyimi olmayan" qayıqlarla müqayisədə 60% daha az müqavimətlə qarşılaşıb. Ancaq bu model delfin dərisinin ən kobud təqlididir.

V Hazırda müəyyən edilmişdir ki, üzgüçülük prosesində dərinin xarici təbəqəsinin xüsusiyyətləri ilə yanaşı, delfinin baş beyni suyun müqavimətinə tab gətirməkdə böyük rol oynayır. O, üzgüçülük zamanı bədənin ən çox suyun müqaviməti ilə qarşılaşan hissəsinin dərialtı əzələ sisteminin fəaliyyətini sinir impulsları vasitəsilə tənzimləyir.

* Prototip – bir şeyin ilkin nümunəsi, ilk görünüşü;
** Hidrodinamist – suda bərk cisimlərin hərəkətini öyrənən alim.

**Suallara keçmək:** 10 11 12 13 14 15 16 17 18 19 20

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**10. Bionika** nəyi öyrənir?

a) Texniki tərəqqinin sürətləndirilməsi məqsədilə insanın mühəndislik fəaliyyətinin inkişafının qanunauyğunluğunu;

b) Bu və ya digər texnoloji məsələnin həlli məqsədi ilə canlı orqanizmlərin fizioloji və anatomik xüsusiyyətlərini;

c) Bəzi heyvanların xarici aləmlə qarşılıqlı əlaqəsini izah etmək üçün onların kompakt “cihazlarını”;

ç) Canlı orqanizmlərin fəaliyyətinin ümumi qanunauyğunluqlarını müəyyən etmək üçün onların bioloji sistemlərini.

Mətnin I səhifəsinə qayıtmaq

Mətnin II səhifəsinə qayıtmaq

**11. Leonardo da Vinçi** epizodu mətndə hansı funksiyanı yerinə yetirir?

a) Canlı təbiət haqqında mövcud biliklərdən istifadə edərək mühəndislik probleminin həll edilməsinin ilk cəhdi haqqında bizə məlumat verir;

b) Uçan maşın - ornitopterlə müqayisədə quşların uçuş mexanizminin mükəmməlliyini vurğulayır;

c) Bir elm kimi bionikanın müasir üsulları və nailiyyətləri haqqında bizə məlumat verir;

ç) İtalyan rəssamlarının töhfələrini və onların fəaliyyət sahələrinin müxtəlifliyini vurğulayır.

Mətnin I səhifəsinə qayıtmaq

Mətnin II səhifəsinə qayıtmaq

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**12.** Mətnə əsasən, **hidrodinamistlər** üçün **izaholunmaz** idi:

a) Delfinin üzmə sürətinin ornitopterin uçuş sürətini üstələməsi;

b) Delfinin saatda 20-30 km-dən çox sürətlə üzə bilməsi;

c) Delfinin suyun müqavimətini əhəmiyyətli dərəcədə azaltmaq qabiliyyətinə malik olması;

ç) Delfinin digər məməlilərdən yeddi dəfə güclü olması.

Mətnin I səhifəsinə qayıtmaq

Mətnin II səhifəsinə qayıtmaq

**13.** Delfin **dərisinin quruluşunun** öyrənilməsinin nəticəsi nə oldu?

a) Müasir uçan aparatların konstruksiyası təkmilləşdi;

b) Qayıqların hərəkəti zamanı suyun müqavimətinin artırılması mexanizmi müəyyən edildi;

c) Leonardo da Vinçi tərəfindən layihələndirilmiş gəmi konstruksiyaları sınaqdan keçirildi;

ç) Bəzi növ gəmilərin hidrodinamik xüsusiyyətləri təkmilləşdirildi.

Mətnin I səhifəsinə qayıtmaq

Mətnin II səhifəsinə qayıtmaq

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**14.** Dərisinin xüsusi xüsusiyyətlərindən başqa, delfinə sürətli üzməyə nə kömək edir?

a) Sinir impulslarının fəaliyyətini şərtləndirən dərinin xarici təbəqəsi;

b) Sinir impulsları vasitəsilə delfinin su axınına qarşı hərəkətinə nəzarət edən baş beyin;

c) Sinir impulsları vasitəsilə dərialtı əzələ sisteminin işini tənzimləyən baş beyin;

ç) Üzgüçülük zamanı beynin fəaliyyətini təmin edən sinir impulsları.

Mətnin I səhifəsinə qayıtmaq

Mətnin II səhifəsinə qayıtmaq

**15**. Hansı cümlə bu mətnin əsas fikrini daha dəqiq ifadə edir?

a) Qrey paradoksu – "İmkanlarından daha sürətli hərəkət et";

b) Delfinin hidrodinamik xüsusiyyətləri sualtı qayığın quruluşu qədər mükəmməldir;

c) "Canlı prototip yeni texnologiyanın açarıdır";

ç) Mühəndislik məsələlərini həll etmək üçün canlı təbiəti müşahidə etmək ideyası Leonardo da Vinçiyə məxsusdur.

Mətnin I səhifəsinə qayıtmaq

Mətnin II səhifəsinə qayıtmaq

# Analogiyalar

Analogiya tipli aşağıda verilmiş tapşırıqlarda istifadə olunmuş sözlərdən bəzilərinə mətndə rast gəlirik (belə hallarda sözün yanında müvafiq abzas göstərilir). Hər tapşırıqda nə tələb olunduğunu diqqətlə oxuyun və düzgün cavabı seçin. Mətn tapşırığa düzgün əməl olunmasında sizə kömək edə bilər.

**16.** Aşağıda sadalanan cütlüklərin hansında verilmiş cütlükdəki kimi münasibət var – **Bionika : Bioloji sistemlər?**

a) Riyaziyyat : Hesablama maşınları

b) Fəlsəfə : Əsas qanunauyğunluqlar

c) Astronomiya : Səmavi cisimlər

ç) Coğrafiya : Atmosfer yağıntıları

d) Kimya : Laboratoriya tədqiqatları

Mətnin I səhifəsinə qayıtmaq

Mətnin II səhifəsinə qayıtmaq

**1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40**

**17.** Aşağıda sadalanan cütlüklərin hansında verilmiş cütlükdəki kimi münasibət var – **Şüar : Deyim?**

a) Emblem : Şərti işarə

b) Başlıq : Axtarış sistemi

c) Əfsanə : Tarixi şəxsiyyət

ç) Afişa : Teatr tamaşası

d) Şeir: Lirik qəhrəman

Mətnin I səhifəsinə qayıtmaq

Mətnin II səhifəsinə qayıtmaq

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**18.** Aşağıda sadalanan cütlüklərin hansında verilmiş cütlükdəki kimi münasibət var – **Hidrodinamika : Su?**

a) Kosmonavtika : Kosmos

b) Aviasiya : Texnika

c) Okeanologiya : Səth

ç) Aerodrom : Məkan

d) Aeroplan : Yer kürəsi

Mətnin I səhifəsinə qayıtmaq

Mətnin II səhifəsinə qayıtmaq

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**19.** Aşağıda sadalanan cütlüklərin hansında verilmiş cütlükdəki kimi münasibət var – **Təqlid etmək : Oxşar?**

a) Cəzalandırmaq : Cərimələnmiş

b) Töhmət vermək: Layiq olmayan

c) Dəstək olmaq : Həyəcanlı

ç) İzah etmək : Başa düşülən

d) Ağıl vermək : Tabe olan

Mətnin I səhifəsinə qayıtmaq

Mətnin II səhifəsinə qayıtmaq

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**20.** Mətnin II abzası bu cümlə ilə başlayır:"Canlı prototip* yeni texnologiyanın **açarıdır**". Burada **açar** sözü məcazi mənada işlənib. Aşağıda sadalananlardan hansının mənası ona uyğun gəlir?

a) Həll etmə qaydası

b) Mürəkkəb məsələ

c) Şifrəsini açmaq çətin olan kod

ç) Texnoloji yenilik

d) Nəyisə kəşf etməyə təkan

Mətnin I səhifəsinə qayıtmaq

Mətnin II səhifəsinə qayıtmaq

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

# Məntiq

*Bu tip tapşırıqlar ilkin məlumatlar və çıxarılacaq nəticələr baxımından bir-birindən fərqlənir. Buna görə də hər tapşırıqda olan suala xüsusi diqqət yetirin və verilən variantlardan müvafiq cavabı seçin.*

*Göstəricilərin çertyoj yaxud diaqram formasında təsviri bəzi suallara cavab verilməsini asanlaşdırar.*

**21.** Beş dost – Anna, Gio, Elene, Maka və Dato – Qaçışda bir-biri ilə yarışdılar. Verilmişdir:

- Anna bütün başqa qızları ötüb keçdi.
- Gio bütün qızlardan geri qaldı.

Aşağıdakılardan hansı neçənci yerə kimin çıxdığını əks etdirə bilməz?

| | I | II | III | IV | V |
|---|---|---|---|---|---|
| a) | Anna | Elene | Maka | Gio | Dato |
| b) | Anna | Maka | Elene | Gio | Dato |
| c) | Dato | Anna | Maka | Elene | Gio |
| ç) | Dato | Maka | Anna | Elene | Gio |
| d) | Anna | Dato | Elene | Maka | Gio |

**22.** Dialoq verilmişdir:

**Sandro:** İnsanlar menecmenti digər ixtisaslara nisbətən daha çox seçirlər, çünki menecerlər daha yüksək maaş alır və daha xoşbəxtdirlər.

**Anna:** Mən səninlə razı deyiləm, yüksək maaşı adətən kişi menecerlər alırlar və bundan başqa menecerlərin borcu digər ixtisaslardan olanlara nisbətən daha çox olur.

Aşağıdakı fikirlərdən hansı ilə nə Sandro, nə də Anna **razılaşmır?**

a) Heç bir menecerin yüksək maaşı yoxdur;

b) Menecerliyi çox hallarda maaşı yüksək olduğu üçün seçirlər;

c) Digər ixtisaslara malik olan şəxslərin menecerlərdən daha az borcu var;

ç) Qadın menecerlər kişi menecerlərdən daha xoşbəxtdirlər;

d) Menecerlər digər ixtisaslara sahib insanlara nisbətən zəngindirlər.

**23.** Avropa ölkələrindən birində eyni ixtisasa malik həkimlər özəl klinikalarda dövlət klinikalarından orta hesabla 50% daha çox maaş alırlar. Buna baxmayaraq, dövlət klinikalarında yüksək ixtisaslı mütəxəssislər çatışmazlığı yoxdur. Ekspert buna əsaslanaraq, həkimlərin işinin əsas motivinin maddi deyil, peşəkar maraq olduğunu fərz etdi.

Aşağıda sadalanan vəziyyətlərdən **ən çox** hansı bu fərziyyəni təsdiqləyir?

a) Özəl klinikalarda həkim vakansiyaları üçün böyük rəqabət var, çünki bu ölkədə yalnız bir neçə özəl klinika var;
b) Bu ölkənin dövlət klinikalarında həkimlər xüsusi iş şəraitinə malikdir və əlavə güzəştlərdən istifadə edirlər;
c) Ölkənin dövlət klinikalarında xəstələrin sayı özəl klinikalarda olan xəstələrin sayından çoxdur;
ç) Ölkənin dövlət klinikalarında bəzi həkimlərin maaşı özəl klinikaların ən yüksək maaş alan həkimlərinin maaşından yüksəkdir;
d) Tədqiqatlar təsdiq edib ki, ölkənin dövlət klinikalarında müalicə keyfiyyəti özəl klinikalardan daha yüksəkdir.

**24.** Müddəalar verilmişdir:

I.  Tarixi filmlərin heç biri əyləncəli deyil.
II. Yalnız bədii filmlər əyləncəlidir.
III. Bütün tarixi filmlərdə faktlardan istifadə olunmuşdur.
IV. Bədii filmlərin heç birində faktlardan istifadə olunmamışdır.

*Aşağıda sadalananlardan hansı bu cümlələr arasındakı münasibəti düzgün əks etdirir?*

a) I digər üçündən irəli gəlir;
b) II digər üçündən irəli gəlir;
c) III  digər üçündən irəli gəlir;
ç) IV digər üçündən irəli gəlir;
d) Heç biri digər üçündən irəli gəlmir.

**25.** Verilmişdir:

- Bəzi kino tənqidçiləri komediya janrlı filmləri sevmirlər.
- Komediya filmlərini sevməyən hər kəsin əllidən çox yaşı var.
- Komediya filmlərini sevməyən bəzi insanlar teatr həvəskarlarıdır.

Əgər verilən müddəalar doğrudursa, aşağıdakılardan hansı **mütləq səhvdir**?

a) Bəzi kino tənqidçiləri teatr həvəskarıdır;

b) Bəzi insanlar komediya filmlərini sevmir və onların yaşı əllidən çox deyil;

c) Komediyaları sevməyən bütün kino tənqidçilərinin yaşı əllidən yuxarıdır;

ç) Teatr həvəskarı olan bütün kino tənqidçilərinin yaşı əllidən yuxarıdır;

d) Komediya janrlı filmləri sevməyən heç bir teatr həvəskarının yaşı əllidən az deyil.

# Cümlələrin tamamlanması

*Elə cümlələr verilmişdir ki, onlarda bir neçə söz buraxılmışdır. Buraxılmış sözlər cümlədə xətlərlə göstərilmişdir. Bir xətdə bəzən bir söz, bəzən isə bir neçə söz nəzərdə tutulur.*

*Ehtimal olunan cavabların hər variantı sözlər qrupunu əhatə edir, onun hissələri bir-birindən sağa əyilmiş xətlərlə – sləşlə (/) müəyyən edilmişdir. Cavabın elə variantını seçin ki, onun hər hissəsinin ardıcıllıqla düzülməsi müvafiq buraxılmış yerlərdə fikir etibarı ilə düzgün cümlə versin.*

**26.** Tarixin hər nöqtəsi yol ayrıcıdır. Keçmişi indiki zamanla sadəcə bir yol birləşdirir, ___ gələcəyə sarı bu yol çoxşaxəli cığıra çevrilir. Bəzi cığırlar nisbətən geniş, düz və yaxşı işarələnib, ___ insan irqi onu ___ bəzən tarix və ya bu tarixi yaradan xalq ___ .

a) buna görə də, / buna baxmayaraq ehtimal yoxdur ki / izləmir, lakin / heç zamandan yolundan yayınmaz

b) amma / buna görə də böyük ehtimalla / izləyir, lakin / mütləq başqa yönə yayınır

c) buna görə də, / buna baxmayaraq ehtimal yoxdur ki / izləməyəcək, çünki / dərhal başqa yönə yayınacaqdır

ç) amma / buna görə də böyük ehtimalla / izləməyəcək, çünki / heç zaman yolundan yayınmaz

**27.** Komediyada _____zarafatcıl rolunu oynamaqdır, _____o rolu oynayanın_____.

a) Ən çətini / baxmayaraq ki, / özü də hazırcavab olmalıdır

b) Ən asanı / baxmayaraq ki, / özü hazır cavab olmamalıdır

c) Ən çətini / çünki / özü də hazırcavab olmaya bilməz

ç) Ən asanı / çünki  / özü hazırcavab olmaya bilməz

**28.** Azadlıq vəziyyəti mütləq özbaşınalıq vəziyyəti deyil: _____azadlıq vəziyyətində insan özünü və ağlını idarə etmək üçün _____, onun özünü və onun sahibliyində olan yaradılışları məhv etmə _____.

a) çünki / tam hüquqa malikdir / hüququ da var

b) baxmayaraq ki, / hüquqa malik deyil / hüququ da yoxdur

c) çünki /məhdudiyyətsiz azadlığa malik deyil / hüququ da var

ç) baxmayaraq ki / məhdudiyyətsiz azadlığa malikdir / hüququ yoxdur

**29.** _______ ki, iqtisadiyyatın _______ ilə paralel olaraq, ölkədə aztəminatlıların sayı da _______.

a) Təəccüblü deyil / pisləşməsi / azalır

b) Paradoksdur, amma faktdır / yüksəlməsi / artır

c) Paradoksdur, lakin bu faktdır / pisləşməsi / artır

ç) Təəccüblü deyil / yüksəlməsi / azalır

## Oxunmuş mətnin düşünülməsi

*Mətni diqqətlə oxuyun və düşünün. Hər sualın ehtimal olunan cavablarından verilmiş mətnə görə düzgün variantı seçin.*

*Bu və ya digər sualla tanış olduqdan sonra suala cavab vermək üçün mətnə qayıtmaq, müvafiq parçanı yenidən oxumaq və suala keçmək lazım gələ bilər. Bunu mətni, eləcə də hər sualın sonunda verilmiş müvafiq qeydi "basmaqla" asanlaşdıra bilərsiniz.*

I Son illərdə alimlər heyvanların zəkası haqqında əhəmiyyətli dəlillər aşkar etdilər. Yeni Kaledoniya qarğaları kiçik budaqları qoparır və onlardan ağaclarda həşərat yuvası axtarmaq üçün istifadə edirlər. Asminoqlar özlərini qorumaq üçün yuvalarının girişinə daş yığırlar. Qarğalar yararsız əşyaları birləşdirərək bir funksional əşya da yarada bilərlər. Zooparkın qəfəslərində camış çalışır ki, tərsinə çevrilmiş tısabağaya kömək etsin. Bir çox heyvanların təsiredici qabiliyyətlərə malik olduğuna heç bir şübhəmiz yoxdur. Tədqiqatçı Yudhijit Battaçarj yazır: "Heyvanların davranışı mənə onların da bizimkinə bənzər duyğuları olduğunu düşünməyə vadar edir". Heyvanların duyğularını tədqiq edən alimlər hətta tədqiqat obyektlərini antropomorfizasiya etməkdə* ittiham olunurlar.

II Ümumiyyətlə, emosiyalar bizi müəyyən hərəkətlərə sövq edən daxili vəziyyətdir. Biz aclığı və ya susuzluğu emosiya adlandıra bilmərik, lakin ona bənzədə bilərik, çünki o da hərəkətləri şərtləndirən daxili vəziyyətdir. Onlara primitiv duyğular deyilir. Gözə görünməyən "imperativ", qorxu kimi primitiv emosiya bizə müəyyən hərəkətləri diktə edir. Biz məhəbbət və kədəri daha dərin, daha mənalı duyğular hesab edə bilərik, lakin mahiyyət etibarı ilə onların primitiv duyğulardan heç bir fərqi yoxdur. İstənilən duyğu, nə qədər ülvi və qeyri-dünyəvi olsa da, bu ilkin duyğulardan qaynaqlanmalıdır. Əgər belədirsə, o zaman müxtəlif növlər - birələrdən tutmuş şimpanzelərə qədər - bəziləri primitiv, bəziləri inkişaf etmiş hisslərə malikdirlər.

III Qarğakimilər ailəsi təsirli zehni qabiliyyətləri (alətlərdən istifadə, problem həll etmək və s.) ilə tanınır. Bundan əlavə, onlar zəkalarının başqa bir təbəqəsindən bəhs edən davranışlar da nümayiş etdirirlər. Söhbət empatiyadan gedir. İllər əvvəl, avstriyalı bioloq Tomas Buqnari qarğaları müşahidə edərkən, iki quş arasında döyüşün şahidi olan üçüncü bir quşun məğlub olan tərəfə təsəlli verdiyini gördü.

*Antropomorfizm – (yun. *anthropos* **insan**, *morfphe* isə ***sifət*** deməkdir) – heyvanlara, bitkilərə və təbiət hadisələrinə insan xüsusiyyətlərinin aid edilməsi.

**Suallara keçmək:** 30 31 32 33 34 35 36 37 38 39 40

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

IV Emosional zəkanın mövcud olması başqalarının emosional vəziyyətini dərk etmək qabiliyyətinin mövcud olması deməkdir. Tədqiqatçı Lianne Prufs belə bir təcrübə aparıb: o, tövlənin qarşısında atların real ölçülü fotoşəkillərini asıb. Bir fotoşəkildə atın qulaqları dikilmiş, gözləri sakitdir - məmnun bir at təsvir edilmişdir. İkinci fotoda at qorxmuş, qulaqları geri atılmış, dırnaqları sıxılmış, burun dəlikləri alovlanmış görünürdü. Prufsun tələbəsi ağ atı tövlədən çıxardı. Bir neçə dəqiqə orada dayanıb şəkillərə baxdı. Sonra o, xoşbəxt sifətə tərəf getdi və burnunu fotoya sürtdü. Bu təcrübə 48 at üzərində aparılıb. Bəziləri xoşbəxt və neytral ifadə, bəziləri neytral və qəzəbli ifadələr arasında seçim etdi. Atlar demək olar ki, həmişə qəzəbli sifətdən qaçırdılar, bu da tədqiqatçıları atların tanımadığı fərdlərin duyğularını tanıya bildiklərinə inandırırdı.

V Başqa bir araşdırmada atlara bir insanın ya gülümsəyən, ya da qəzəbli şəkli göstərilib. Foto səhər saatlarında göstərilir, günorta isə fotodakı şəxs neytral ifadə ilə atın qarşısında əyləşirdi. Səhər ata qəzəbli insanın fotoşəkili göstərildikdə, günortadan sonra heyvan eyni adamı görəndə stress əlamətləri göstərirdi. Xoşbəxt insanın şəklini göründükdə isə, at daha müsbət və ya neytral reaksiya verdi. Tədqiqatın nəticələri göstərdi ki, atlar təkcə digər atların deyil, insanların da emosional vəziyyətlərini ayırd etmək və onlara cavab vermək qabiliyyətinə malik ola bilər. Bu davranış yüksək inkişaf etmiş tanıma və yaddaş bacarıqlarını göstərir.

*Antropomorfizm – (yun. *anthropos* **insan**, *morfphe* isə ***sifət*** deməkdir) – heyvanlara, bitkilərə və təbiət hadisələrinə insan xüsusiyyətlərinin aid edilməsi.

**Suallara keçmək:** 30 31 32 33 34 35 36 37 38 39 40

**30.** I abzasdan dörd cümlə verilmişdir:

I. Son illərdə alimlər heyvanların zəkası haqqında əhəmiyyətli dəlillər aşkar etdilər;
II. Bir çox heyvanların təsir edici qabiliyyətlərə malik olduğuna heç bir şübhəmiz yoxdur.
III. Heyvanların davranışı mənə onların da bizimkinə bənzər emosiyaları olduğunu düşünməyə vadar edir;
IV. Heyvanların emosiyalarını tədqiq edən alimlər hətta tədqiqat obyektlərini antropomorfizasiya etməkdə ittiham olunurlar.

Aşağıdakı cümlələrdən hansını eyni abzasda verilmiş qarğalar, asminoqlar camışlar və tısbağaların "illüstrasiya"sı hesab edə **bilmərik**?

a) I cümləni;
b) II cümləni;
c) III cümləni;
ç) IV cümləni.

Mətnin I səhifəsinə qayıtmaq
Mətnin II səhifəsinə qayıtmaq

**31.** II abzasa əsasən, aşağıda sadalananlardan hansı emosiyalar haqqında düzgün mülahizədir?

a) Bir çox heyvan növlərinin xüsusi hərəkətləri ona diktə edən müxtəlif emosiya növləri var;

b) Gözəgörünməz "imperativ", qorxuya bənzəyən primitiv duyğu heyvanı istənilən hərəkətə sövq edir;

c) Heyvanda hər hansı ülvi və ya qeyri-dünyəvi duyğular primitiv duyğular tərəfindən şərtlənir;

ç) Aclıq və susuzluğu duyğu adlandıra bilərik, çünki hər ikisi daxili vəziyyətləri təmsil edir.

Mətnin I səhifəsinə qayıtmaq

Mətnin II səhifəsinə qayıtmaq

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**32.** Mətndə **qarğalar epizodu** bizi qarğakimilər ailəsinin nümayəndələrinin hansı xüsusiyyəti ilə tanış edir?

a) Onların başqa bir şəxsin dərdinə şərik olmaq kimi nadir bacarıqları ilə; bu zəka təbəqəsi bir çox növ üçün xarakterikdir;

b) Yalnız bu növ üçün xarakterik olan olan təsirli zehni qabiliyyətlər ilə;

c) Başqa bir fərdin "hisslərini" tanımaq və bir növ empatiya ifadə etmək kimi xüsusi qabiliyyət ilə;

ç) Məğlub olanları və qalibləri ayırd etmək kimi yüksək səviyyədə inkişaf etmiş qabiliyyət ilə.

[Mətnin I səhifəsinə qayıtmaq]

[Mətnin II səhifəsinə qayıtmaq]

**33. Emosional intellekt** başqalarının emosional vəziyyətini qavramaq qabiliyyətinə deyilir. Atlarla əlaqədar emosional intellektdən danışa bilərikmi? (Lien Prufsun təcrübəsinin nəticələrinə əsasən cavab verin)

a) Bəli, çünki atlar yad adamın üzünü görəndə qorxurdular, bu da onlarda emosional zəkanın olmasından xəbər verir;

b) Bəli, çünki əksər hallarda atlar naməlum şəxslərin emosiyalarını tanıya bilirdilər ki, bu da məhz emosional intellekt adlanan qabiliyyətdir;

c) Xeyr, çünki emosional intellekt həm də öz emosiyalarını idarə etməyi ehtiva edir, atlar isə qəzəbli insanı görəndə bunu edə bilmədilər;

ç) Xeyr, çünki emosional intellekt başqalarının emosiyalarını qavramaq qabiliyyətini ehtiva edir və atlar digər şəxslərin neytral ifadələrini tanıya bilmirdilər.

Mətnin I səhifəsinə qayıtmaq

Mətnin II səhifəsinə qayıtmaq

**34**. Aşağıdakılardan hansı bizi atların yüksək inkişaf etmiş **davranış tanınması və yaddaş** bacarıqlarına malik olduğuna fikirləşməyə vadar edir?

a) Atlar müxtəlif emosiyalara malik insanlarla neytral ifadəli insanları ayırd etməyi bacardılar;
b) Atlar ümumiyyətlə başqa atların duyğularını tanıyır, xatırlayır və onlara reaksiya verir, lakin insanların duyğularını ayırd etməkdə çətinlik çəkirlər;
